# BA CİN YARADICILIĞININ İDEYA İSTİQAMƏTLƏRİ

**Nərmin Cahangirova**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: nermincahangirova83@gmail.com

https://doi.org/10.59849/iscapltmt.2024.148

**Xülasə.** Yaradıcılığı XX Çin ədəbiyyatı tarixinin böyük bir mərhələsini əhatə edən Ba Cin ziddiyyətli seçimləri və düşüncələri ilə seçilən yazıçılardan olmuşdur. Böyük bir yaradıcılıq mərhələsi keçirən yazıçı demək olar ki, bir çox janrlarda yazıb-yaratmış, roman, hekayə, esse və tərcümeyi-hal kimi çoxlu ədəbi-bədii mətnlər müəllifi olaraq tanınmışdır. Ba Cin həyatı boyu bır sıra hadisələrə, ictimai-siyasi formasiya dəyişikliklərinə şahid olmuş və yaşadığı dəyişikliklər onun bilavasitə yaradıcılığının formalaşmasına, bədii fəaliyyətinə təsirini göstərmişdir. Bütünlükdə ədəbi dili və ədəbiyyatın istiqamətini dəyişən 4 may inqilabı Ba Cinin həyatında da köklü dəyişikliklərə səbəb olmuş, dəyişən dəyərlər, yeni dünyagörüşü yazılan ilk məqalə və hekayələrdə əksini tapmışdır. Onun şahidi olduğu haqsızlıqlardan, həyatında məna axtarışından, Çində islahatlara can atmasından bəhs edən romanları, hekayələri və esseləri gənclərin diqqətini cəlb edirdi. Məqalədə Ba Cinin yaradıcılığını formalaşdıran məqamlardan, ona özünəxas istiqamət verən inqilabi-siyasi hadisələrin təsirindən, anarxizmə meyil etməsindən ətraflı bəhs edilir. Rus və Avropa ədəbiyyatından təsirlənən yazıçının “Ailə”, “Bahar”, “Soyuq gecə” romanlarının, müxtəlif məzmunlu hekayələrinin, onlarla essenin yazılmasında vacib nüanslar tədqiq edilmiş, yazıçının yaradıcılığında özünün göstərən meyillər təhlil olunmuşdur.
**Açar sözlər:** Ba Cin, anarxizm, inqilab, ədəbiyyat, ədalət

## The main thematic directions in the creative work of Ba Jin

**Narmin Cahangirova**
Doctor of Philosophy in Philological sciences
Institute of Literature named after Nizami Ganjavi, Azerbaijan
E-mail: nermincahangirova83@gmail.com

**Abstract.** Ba Jin, a prominent figure in 20th-century Chinese literature, was known for his contradictory perspectives and decisions. His extensive literary career covered a wide range of genres, including novels, short stories, essays, and biographies, showcasing his versatility as a writer. Ba Jin witnessed a number of events and changes in socio-political formations throughout his life, and the changes he experienced directly influenced the formation of his creativity and artistic activity. The May 4th Revolution, which changed the literary language and direction of literature as a whole, also caused radical changes in Ba Jin’s life, and the changing values and new worldview were reflected in his earliest articles and stories written. His novels, stories, and essays, reflecting the injustices he observed, his quest for meaning in life, and his aspirations for reform in China, resonated with young readers. The article explores in detail the key moments that shaped Ba Jin’s literary journey, the impact of revolutionary-political events that influenced his path, and his leaning towards anarchism. The article examines important points in the writing of the novels “Family”, “Spring”, “Cold Night”, stories of various contents, and dozens of essays of the writer, who was influenced by Russian and European literature. The article also analyzes the tendencies manifested in the writer’s creativity.
**Keywords:** Ba Jin, anarchism, revolution, literature, justice

Çinin ziddiyyətli seçimləri və anarxist düşüncələri ilə seçilən yazıçılarından olan Ba Cinin yaradıcılığı XX Çin ədəbiyyatı tarixinin böyük bir mərhələsini əhatə edir. 1904-2005-ci illərdə yaşayan yazıçı, təxmini olaraq, 15-16 yaşlarından ömrünün sonuna qədər yaradıcılıqla məşğul olmuşdur. Təbii ki, bu müddət ərzində Çin və bütün dünya çox böyük dəyişikliklərə məruz qalıb, yazıçının dünyagörüşü, əsərlərinin məzmunu, bədii üslubu da bir çox cəhətdən dəyişilmişdir. Lakin dəyişməz olan bir məqam vardı: yazıçının xalq qarşısında borcunu dərk etməsi, həqiqət və ədalət istəyi, bəşəriyyəti hər cür sosial və mənəvi köləlikdən azad etmək ideyasına sədaqəti. Məhz bu səbəbdən ədalət, azadlıq, bərabərlik ideyaları yazıçını daim diqqət mərkəzində olmuş və çoxsaylı əsərlər fonunda böyük oxucu auditoriyasına təqdim edilmişdir. Ba Cin əsərlərində antifeodalizmlə yanaşı, köhnə fikirlərə qarşı tənqidi münasibət, nəsillərarası mübarizə, qadın kişi bərabərsizliyi, təhsilin önəmi və müasir eşq anlayışı kimi müxtəlif mövzulara toxunmuşdur.

**Ba Cinin həyatı və mühiti**

Ba Cin 1904-cü ildə Çinin Siçuan əyalətinin Çendu şəhərində torpaq sahibi olan və çoxlu ailə üzvlərinin yaşadığı böyük bir ailədə anadan olmuşdur. Əsl adı Li Yaotang olan yazıçı kiçik yaşlarından bir sıra ictimai-siyasi hadisələrə şahidlik etmiş, 1911-ci il Sincan üsyanı, qanlı küçə döyüşləri, 1919-cu il 4 may inqilabının hazırlıq mərhələləri onun təfəkküründə dərin və silinməz izlər qoymuşdur. Lakin yaşadığı həyat onun idealları ilə uyğunluq təşkil etmirdi. Ailə daxilində oxuyub öyrəndiklərini ifadə edə bilməməsi və ətrafdakılarla fikirlərini bölüşə bilməməsi onu "qəfəs"də hiss etdirir və fikirlərini bölüşə biləcəyi birini axtarmağa sövq edir, çıxış yolu olaraq oxuduğu jurnalların redaktorlarına məktublar yazırdı. Yazdığı məktublardan birinə cavab alaraq jurnalda işə başlayır. Onu rus anarxisti Pyotr Alekseyeviç Kropotkinin fikirləri olduqca maraqlandırır, "Gəncliyə çağırış" məqaləsi düşüncəsinin formalaşmasına istiqamət verir. Ba Cinin yaradıcılığında həlledici məqam 1921-ci ildə qələm dostları ilə birlikdə "Bərabərlik Cəmiyyəti" adlı qrupun yaradılması ilə başlayır. İctimai-siyasi vəziyyətin qarışıq olduğu illərdə bu tip birliklər, cəmiyyətlər qurmaq geniş hal almışdı. Cəmiyyətdən fərqlənən, ideal hakimiyyət, azad gələcək axtarışında olan insanların birləşdiyi cəmiyyətlər gənclərin düşüncəsinin formalaşmasına da yön verirdi. Bu icmanın yaranması ilə müəllif ilk dəfə olaraq özünü "anarxist" adlandırır və adını da anarxistlərin adı ilə uyğunlaşdırıb Ba Cin təxəllüsü qəbul edir. Bir müddət bu şəkildə fəaliyyət göstərdikdən sonra yaşadığı mühitdən uzaqlaşmalı olduğunu dərk edərək kiçik qardaşı ilə birlikdə Çenqdunu tərk edib Şanxaya gedir və ictimai fəaliyyətlərə qoşulur. Bu dövrdə bir çox təşkilatlarada iştirak edir, anarxist yazıları Çin dilinə tərcümə edirdi. O, anarxizmi təbliğ edən məqalələr yazır və məqalələrdə illər ərzində mənimsədiyi anarxizm prinsiplərindən mütləq hakimiyyətə və feodal quruluşuna qarşı silah kimi istifadə etməyə başlayır.

1927-ci ildə isə təhsil almaq üçün Fransaya gedən Ba Cin anarxizmin müdafiə etdiyi prinsiplər üzərində dərin araşdırmalar aparır. Avropada onu fransız maarifçilərinin fikirləri və burjua inqilabının demokratik ideyaları olduqca cəlb edirdi. O zaman Çində Kuomintang Partiyası kommunist inqilabçılarına qarşı qanlı qırğın həyata keçirir, humanizm və demokratiya ideyalarına sadiq olan Ba Cin baş verənləri təəssüf və təəccüblə qarşılayır. Şanxaya qayıdan gənc yazıçı Yapon dilini öyrənmək və ədəbiyyat üzrə təhsilini davam etdirmək üçün Yaponiyaya getsə də, qısa müddət sonra ölkəsinə geri qayıdır və bir neçə dostu ilə birlikdə "Mədəniyyət və həyat" nəşriyyatını təsis edir. O, nəşriyyatda redaktor işlədiyi müddətdə də qələmdən uzaqlaşmamış, hekayə və tərcümələr üzərində işləmişdir. Beləliklə də, uzunmüddətli bir ədəbi yaradıcılığın bünövrəsi qoyulmuş olur.

**Ba Cinin ədəbi-bədii yaradıcılığı**

Çinin gərgin hadisələrlə çalxalandığı dövrdə müxtəlif jurnal və qəzetlərdə dərc etdirdiyi, feodal quruluşuna qarşı üsyan ifadə edən, şəxsiyyətin azadlığını vurğulayan məqalələri Ba Cinin ədəbi həyatının başlanğıcı sayılır. Çoxsahəli yaradıcılığa malik müəllif təkcə roman, hekayə kimi bədii ədəbiyyat sahələrində deyil, bədii tərcümə sahəsində də böyük uğurlar qazanmış, çoxsaylı tərcümələr

etmişdir. İ.S.Turgenevin bir çox hekayə və povestləri, "Atalar və oğullar, "Xam torpaq" romanları kimi bir çox dəyərli əsərləri Çin dilinə məhz ingilis, fransız, yapon və rus dillərindən başqa, alman və ispan dillərinə də yiyələnən Ba Cinin tərcümələri ilə çatdırılıb. Yazıçı kimi fəaliyyəti isə konkert bir istiqamət üzrə formalaşmamış, anarxizm, humanizm, realizm, romantizm kimi çoxsaylı ideoloji prinsiplərə, ədəbi istiqamətlərə meyil etmiş, bir çox istiqamətdə qələmini sınamışdır. Dövrün vacib əhəmiyyət kəsb edən hadisələri – inqilab, hakimiyyət dəyişikliyi, mədəni inqilab, yaraların sarılması mərhələri Ba Cin kimi əksər yazıçı üçün qeyri-müəyyənlik yaradır, ziddiyyətli məqamlardan irəli gələn bu qarışıqlıq birbaşa olaraq əsərlərə və müəllif ideologiyasına sirayət etmişdir.

Ümumi olaraq götürsək, müəllifin ədəbi fəaliyyətə başlaması 4 May hərəkatından sonraya təsadüf edir, dil və mədəniyyət sahəsində islahatların aparıldığı vaxtla üst-üstə düşür. 4 may inqilabı Çinin ictimai-sosial həyatında olduğu qədər ədəbi həyatında da mühüm rol oynamış, ədəbi fikrin kökündən dəyişməsində, müasir düşüncənin formalaşmasında əhəmiyyət kəsb etmişdir. Bu haqda müəllifin esselərində çoxlu qeydlər var. Ba Cin özünü 4 May hərəkatının oğlu hesab etdiyini, bu inqilabın onun gözlərini açdığını, yeni ideyaları, yeni mədəniyyəti dərk etmək imkanı verdiyini, ailəsindən uzaqlaşaraq, "qaranlıq krallıq" adlı köhnə despotizm yuvasını tərk etməyi üçün cəsarətləndirdiyini vurğulayır. Beləliklə də, Ba Cin ən böyük düşməni kimi gördüyü feodal quruluşu və mühafizəkar əxlaqla mübarizəsini on doqquz yaşında ilk dəfə qarşılaşdığı anarxizm vasitəsilə davam etdirir. Lakin Fransada olduğu dövrdə Böyük Çin Reformasiyası uğursuzluqla başa çatır və anarxist ideologiya müəllifin torpaqlarında möhkəmlənə bilmir. Çində anarxizmə vurulan bu zərbə Ba Cinə böyük təsir etdiyindən yaşadığı ümidsizliyi daxili səsinin ona dediklərini qələmə aldığı "Mənim arzum" adlı məqaləsində əks etdirir. Yazıçı öz əsərlərindən danışarkən "erkən dövr" və "son dövr" anlayışlarından istifadə etmişdir. Birinci dövr müəllifin 1949-cu ilə qədər – Çin Xalq Respublikasının yarandığı ildən əvvəl yazdığı əsərləri əhatə edir və müəllifin ən məhsuldar olduğu dövr sayılır. Bu dövrdə yazıçı daha çox hekayə və romanları ilə ön plana çıxır. 1949-cu ildən sonrakı "son dövr" isə daha çox esse və hekayələri əhatə edir.

1930-cu ildən başlayaraq ədəbi baxımdan çox məhsuldar bir dövrə qədəm qoyan Ba Cin "Sevgi Trilogiyası" əsərinin hissələrini təşkil edən "Duman", "Yağış" və "Elektrik" romanlarını yazır. İslahatçı gənclərin ailə həyatından, dostluq və məhəbbətlərindən bəhs edən "Sevgi Trilogiyası" müəllifin sosial islahatlar problemi ilə bağlı düşüncə və hisslərinin məcmusudur. Vətəndaş müharibəsinin top atəşindən və natiqlərin nitqindən sağalıb həyata qədəm qoyanlar, mərkəzi küçələrdə zəhmətkeşlərin qaranlığı və yoxsulluğu ilə ziddiyyət təşkil edən rəngarəng pankartlardan və vitrinlərin parıltısından korlanmış gənclər əsərdə tamam başqa cəhətlərdən təqdim edilir. Gənclərin azadlıq və bərabərlik uğrunda canları bahasına mübarizə aparmalarına toxunulur. Ba Jin inandığı dəyərləri və hissləri romanlarındakı personajlar vasitəsilə oxucularına çatdırmağa meyillidir. Əsərlər gənclik başda olmaqla, bütün təbəqələr tərəfindən maraqla qarşılanır, həyəcanlı, dinamik, romantik ruhlu, işıqdan kölgəyə, həvəsdən ümidsizliyə kəskin keçidləri Ba Cinin yaradıcılığının əsas məqamları kimi diqqəti cəlb edir. Dövrün solçu ədəbi hərəkatı Çinin sosial reallığını bütün mürəkkəbliyi və ziddiyyətləri ilə mümkün qədər dolğun əhatə etmək, cəmiyyətin inkişafının əsas tendensiyalarını müəyyənləşdirmək, oyanan kütlələrin və onların avanqard nümayəndələrinin tipik obrazlarını yaratmaq vəzifəsini qarşısına qoyur və yazıçı da bu vəzifəni layiqincə yerinə yetirməyə çalışırdı.

1929-1936-cı illər arasında Ba Cin altmışdan çox hekayə qələmə almışdır. Müəllifin 1927-ci ildə Fransaya, 1934-cü ildə Yaponiyaya səfərlərinin və bu ölkələrdəki həyatının hekayə yaradıcılığına təsiri kifayət qədər aydın görünür. Tarixi sənədlərə və tərcümeyi-hallara əsaslanaraq etdiyi bəzi dəyişikliklər istisna olmaqla, hekayələrin mövzuları xaricdəki həyatından əldə etdiyi təcrübələrə və əcnəbi dostlarla münasibətlərinə əsaslanır. Xarici ölkədə yaşamaq, onların adət-ənənəsi, mədəniyyəti ilə tanışlıq müəllifə fərqli müşahidə mühiti və yeni baxış bucağı qazandırmışdır. Yeni mədəniyyətlərlə, müxtəlif insan qrupları ilə bir araya gəlmək müəllifin qələmini zənginləşdirərək

yaradıcılıq arealının genişlənməsinə imkan yaratmış və bu məqamı hadisələri Çindən kənarda cərəyan edən və qəhrəmanları əcnəbilər olan çox sayda əsərlərlə (əsasən, qısa hekayələr) sübut edir. "Qisas" adlı ilk hekayələr toplusundakı hekayə qəhrəmanları – fransız dul qadın və polşalı siyasi mühacir, italyan inqilabçısı və "səssiz balalayka"sı ilə rus məhbusu sadə və gözəl insanlar kimi təqdim olunur.

Ba Cinin hekayələrini müasir yazıçıların hekayələri ilə müqayisə etsək, bəzi struktur fərqlərini görmək mümkündür. Bu struktur fərqlərindən ən bariz olanı budur ki, Ba Cin hekayənin süjetini oxucularına daha çox daxili təhkiyəçi vasitəsilə çatdırıb. Müəllifin hekayələrini digər müasiri olduğu yazıçıların hekayələrindən fərqləndirən təkcə struktur fərqləri deyil. Məzmun, toxunduğu problemlər, əsər qəhrəmanları baxımından da seçilən hekayələrdə müəllif həyatın özündən çox, duyğulara üstünlük verir. Onun hekayələrindən biri olan "Qul ürəyi" yazıçının bütün həyatı boyu narahat edən məsələlərdən olan köləliyə, onların insan kimi hörmət görməməsinə, cəmiyyətdə digərləri ilə eyni səviyyədə dəyərləndirilməməsinə həsr olunmuşdur. Yenə də 1-ci şəxsin dilindən verilmiş hekayədə müəllif həm əsas obrazın, həm də haqqında danışılan qulun dilindən keçirilən hissləri, duyğuları olduqca təbii şəkildə ifadə etmişdir. "Amma görünür, onun məndən başqa dostu yox idi. Təbii ki, bəzi adamları tanıyırdı, amma heç kim onunla dostluq etməyə həvəsli deyildi, özünün də dostluq etməyə həvəsi yox idi" [3, s.90].

Xüsusilə də hekayədə təbəqələrarası fərq, bu hissin yaratdığı qapalılıq və kəskin şəkildə təqdim edilmişdir. "O, haqlı idi: mən həqiqətən başa düşmədim. Niyə öz yaşında bir insan başqalarından fərqli olaraq bu qədər tutqun olmalıdır, niyə bütün həzzlərdən imtina edib öz düşüncələrinə çəkilməlidir – mən bunu başa düşə bilmədim. Məhz bütün bunlar mənə qəribə göründüyü üçün Panı daha çox başa düşməyə çalışırdım". Baş verənləri anlamaqda çətinlik çəkən qəhrəman öz həyatı ilə qrup yoldaşının həyatı ilə arasında müqayisələr aparır və qul olmağın faciəsini açıqlayır.

Ba Jinin yazılarında ən çox diqqəti cəlb edən məqamlardan biri onun feodalizmi və ənənəvi Konfutsi dəyərlərini tənqid etməsidir. Onun ən məşhur romanı, "Sellər" trilogiyasının bir hissəsi olan "Ailə" romanı Çin feodal ailə quruluşunun zülmkar xarakterini parlaq şəkildə göstərir. Əsərdə sərt iyerarxiyaya və avtoritar ağsaqqallar tərəfindən məcbur edilən evliliyə qarşı mübarizə aparan gənclərdən bəhs edilir. Ba Cin gənc ziyalıların, qadınların və şəxsi azadlıq arzulayan, lakin köhnəlmiş adətlərin tələyə düşürdüyü hər kəsin əzablarını təsvir edir. Ba Cinin qəhrəmanları tez-tez ictimai normalara meydan oxuyur və öz dəyərlərinə uyğun olaraq azad yaşamağın yolunu axtarırlar. Bununla belə, onlar ənənənin və avtoritarizmin böyük gücü qarşısında tez-tez faciəvi nəticələrlə üzləşirlər.

1937-ci ildə başlayan və 1946-cı ildə sona çatan İkinci Çin-Yapon müharibəsi zamanı Ba Cin bu müharibənin sosial həyata təsirləri haqqında bir sıra əsərlər yazır. Sadə xalqın çətinliklərini, ordunun zəif və hazırlıqsızlığını, Kuomintang hakimiyyət orqanlarının acizliyini və korrupsiyanın yüksək həddə olduğunu, insanlardakı ruh düşkünlüyünü yazıçı fəhmi ilə sezirdi. Müharibənin ilk illərindəki ruh yüksəkliyi artan məyusluqla əvəz olunmuş, ətrafdakı cəmiyyət ümidsizliyə, soyuq və qaranlığa qərq olmuşdu. Gördüklərindən təsirlənən yazıçının həyata baxışı, düşüncələri dəyişdikcə, yazı tərzi də dəyişirdi. Romantik sevinc, qızğın ehtiraslar və qızğın mübahisələr yerini qarşıdurmalar, cəmiyyət problemlərinin təqdimi ilə əvəzləyir. "Kiçik insanlar, kiçik əməllər" hekayələr toplusu, "Sevinc bağı" və "4 saylı palata" hekayələri və xüsusilə "Soyuq gecə" romanı müəllifin dəyişən dünyagörüşünün nəticəsini sübut edir. Əsərlər mövzu və ideya baxımından bənzəsələr də, üslub və süjet xətti ilə fərqlənir, həm də müəllifin beynəlxalq şöhrət qazanmasına kömək edir. Romanda A.Çexovun təsirinin aydın şəkildə özünü göstərdiyi və rus ədəbiyyatına xas olan böyük, rəhmsiz dünyada "kiçik adam" mövzusunu davam etdirdiyi açıq şəkildə özünü büruzə verir. Lu Sin, Yu Dafu kimi öncüllərinin yaradıcılığında müşahidə edilən realizmin prinsipləri və keyfiyyətləri – tənqidi ruh, problemlərin, cəmiyyətdəki çatışmazlıqların təqdimi Ba Cinin əsərlərində kəskin boyalarla təqdim olunur. Əsərlərin qəhrəmanları, onların psixoloji halları və daxili aləmləri, hadisələrin və onların baş verdiyi yerlərin təsviri oxucularda reallıq hissi yaradır. "Soyuq gecə" müəllifin realizm hərəkatını ən aydın şəkildə əks etdirdiyi əsərdir. Əsəri yazdıqdan on yeddi il sonra Ba Cin bu romandakı personajlar

və yerlər haqqında bəzi fikirlər səsləndirərək romanındakı personajların, əslində, mövcud olmadığını, lakin hekayənin arxa planı və hadisələrin son dərəcə real olduğunu diqqətə çatdırmışdır. "*Mən burada demək istəmirəm ki, mən əlimdə kamera ilə video çəkmişəm və ya real hadisələrdən, insanlardan xəbər yazmışam. Həqiqətən demək istədiyim odur ki, romandakı bütün hekayə o vaxt yaşadığım məhəllədə, qaldığım otağın yuxarı mərtəbəsində, binanın giriş qapısında, Min Quo küçəsində və onun ətrafında cərəyan edir"*. Ba Cinin açıqlamalarından da göründüyü kimi, "Soyuq gecə" romanının ilham mənbəyi real həyatdır. Müəllifin yaratdığı obrazlar bir nəfəri deyil, cəmiyyəti təmsil edir. Ba Cin psixoloji təsvirlər vasitəsilə oxucuya qəhrəmanlarının ağrısını hiss etdirir, ədəbiyyatın həqiqi insan duyğularını və mübarizələrini əks etdirməli olduğuna inamını nümayiş etdirir. Onun humanist ideallarının məğzində məhəbbət və xeyirxahlığın sərt sosial sistemlərdən daha çox cəmiyyətin təməli olması ideyası dayanırdı. Vanq ailəsinin dağılması süjeti çərçivəsində dövrün ziyalılarının faciəvi durumundan bəhs edən bu roman yazıçının qələmindən məharətlə istifadə etdiyi ilk dövrünün son əsəri sayılır.

"Soyuq gecə" romanından sonra bir neçə il yazıçılığa fasilə verən Ba Cin 1949-cu ildə Çinin düşmən işğalından tamamilə azad edildiyi və Çin Xalq Respublikasının qurulduğu zaman sükutu pozaraq yenidən qələmini əlinə alır, yeni həyat, ideallardan bəhs edən, qalibiyyət ruhlu əsərlər yazır. Ba Cinin əsərlərindəki mövzu və duyğu dəyişikliyi təsadüfi deyil; çünki ilk növbədə, bu dəyişikliyin səbəbi müəllifin Çin Xalq Cümhuriyyətinin qurulması ilə sosializmin gətirdiyi yeni həyatın torpağında kök salmasını, xalqın qələbəsini, sevincini ifadə etmək istəməsidir.

1966-cı ildə o zamankı Çin Kommunist Partiyasının lideri Mao Zedong tərəfindən kommunist ideologiyasının Çin torpaqlarında tamamilə kök salmaq məqsədi ilə başladığı və 1976-cı ildə sona çatan "Mədəni inqilab" bir çox yazıçı kimi Ba Cinin yazılarını buxovlamışdı. Respublikanın yaranmasından yaranan sevinc hissi çox da uzun çəkmədən yerini bədbinliyə təslim etdi. Bir çox digər ziyalılar kimi, Ba Cin də inqilab əleyhinə təhlükə hesab edilərək "yenidən öyrənməsi" üçün kəndə sürgün edildi. Yazılarına on il ara verən yalnız "Mədəni inqilab" bitdikdən sonra mürəkkəbini kağızla yenidən birləşdirən Ba Cin bu dövrdə roman və hekayələrdən daha çox, publisistik əsərlərə – esselərə diqqət yetirməyə başladı. Artıq azadlıq və bərabərliyə nail olmaq üçün çıxış yolu hesab etdiyi inqilab, hakimiyyət dəyişikliyi, dəyərlərə münasibət yazıçı üçün fərqli əhəmiyyət kəsb etməyə və daha mürəkkəb anlam daşımağa başladı. "O, yaşadığı bütün çətinlikləri 1978-1986-cı illər arasında yazdığı beşcildlik "Təsadüfi düşüncələr" adlı esse toplularında qələmə alıb. Ümumilikdə, 150 essedən ibarət olan bu əsərdə Ba Cin bəşəriyyətin zəif tərəflərini və feodalizm düşüncə sistemini tarixi prizmadan hərtərəfli araşdırır" [2, s.36].

Müəllifin daxili aləmini, ideoloji düşüncələrini əks etdirən bu yazılar həm də tarixi sənədlərdir. Keçmişdə baş verən və unudulmaması lazım olan hadisələr bu yazılar vasitəsilə nəsildən-nəslə ötürülür. Tarix kitablarında təsvir edilən "Mədəni inqilab" ilə Ba Cinin yazılarında təsvir olunan "Mədəni inqilab" arasında incə bir fərq var. Tarixi sənədlər və kitablar inqilabın necə başladığını və necə bitdiyini izah etdiyi halda, Ba Cinin yazıları on il davam edən "Mədəni inqilab"ın fərd və cəmiyyətə təsir və nəticələrini, insanlarda yaratdığı ruh düşkünlüyünü çatdırır.

Ba Cinin yaradıcılığında ən vacib məqam onun dəyərlərinə sadiq qalması – azadlıq, şəfqət və ədalət uğrunda daim mübarizə aparması idi. İlkin feodalizmin tənqidindən tutmuş inqilab haqqında sonrakı düşüncələrinə qədər onun ədəbiyyatı həm cəmiyyətə güzgü rolunda girməsi, həm də ədəbiyyatın ədalətsizliyə meydan oxumaq və dəyişikliyə ilham vermək gücünü xüsusi vurğulaması təqdirəlayiqdir. Ba Cin bir yazıçı, bir aydın kimi bütün dövrlərdə təkcə əsərlərinə görə, ədəbiyyata verdiyi töhfələrə görə deyil, demokrat və humanist, həqiqətin müdafiəçisi olduğuna görə yüksək qiymətləndirilmişdir.

**Ədəbiyyat**

1. Aydın, L. Çin edebiyatında modernleşme, DOĞU EDEBİYATINDA EDEBİ AKIMLAR VE ÜSLUPLAR. – İstanbul: Aralık, 2019.
2. Chunyu, L. Eski Çağlardan Günümüze Çin edebiyatı. Haziran, 2020.
3. https://litmir.club/br/?b=223432&p=90, s.90.
4. Цзинь, Б. Избранное. – Москва: Радуга, 1991.